*MƏTBUAT ÜÇÜN MƏLUMAT*

**Əlaqə:**
Kənan Qasımov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: kanan_q@transparency.az

**Şəkidə "Korrupsiyasız Yay" keçir**



**18 Avqust** – "Transparency International" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında Şəki şəhərində həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsi (ALAC), habelə Azərbaycan hökuməti tərəfindən qəbul edilmiş "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində Şəki şəhərində ictimaiyyəti arasında "Korrupsiyasız Yay" kampaniyası keçirib. ALAC Şəki mərkəzi tərəfindən keçirilən kampaniyada sakinlərə korrupsiya əleyhinə materiallar paylanıb, onlara korrupsiya ilə mübarizə istiqamətində görə biləcəkləri işlər başa salınıb, vətəndaşlar informativ xaraketerli bukletlər, flayerlərlə təmin edilib. Kampaniyaya vətəndaşlar böyük maraq göstəriblər. Müxtəlif yaş qruplarından olan vətəndaşlar korrupsiya ilə mübarizə barəsində məlumatlandırılıblar.

*2005-ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin mövcud olan Bakı, Gəncə və Lənkəran mərkəzləri ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), Quba və Şəki mərkəzləri isə ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında fəaliyyət göstərir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün [www.transparency.az](http://www.transparency.az) internet səhifəsinə müraciət edə bilərsiniz.*